# “Antrepo” tipli anbarlar yaradılır

***Bu, ölkəmizin beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilməsinə dəstək olacaqdır***



**Ölkəmizin əlverişli coğrafi mövqeyindən səmərəli istifadə edərək logistik mərkəz, tranzit ölkəsinə çevrilməsi üçün beynəlxalq layihələrin ardıcıl icrası uğurla davam etdirilir. Ölkə Prezidenti İlham Əliyevin iqtisadi siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialından səmərəli istifadə edilməsi mühüm yer tutur.**

Dünya ticarətində böyük rolu olacaq tarixi ipək yolunun bərpası ilə ölkəmizin müasir tələblərə uyğun dünya ticari logistik şəbəkələrinə inteqrasiya olunmasında, eləcə də bu inteqrasiya prosesində Azərbaycanın rol və iştirakının təmin olunmasında, ölkə Prezidenti İlham Əliyevin gələcək perspektivlərə hədəflənmiş uğurlu iqtisadi siyasəti artıq öz müsbət nəticələrini verməkdədir. Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən regional layihələr, ölkəmizin nəqliyyat qovşağına çevrilməsinə, tranzit potensialının güclənməsinə xidmət edir. Prezident İlham Əliyevin Bakı Beynəlxalq Ticarət Limanının, eləcə də Ələt Azad İqtisadi Zonasının yaradılması ilə bağlı verdiyi sərəncam və tapşırıqlar, aparılan uğurlu uzaqgörən siyasət, Azərbaycanı Avrasiya məkanının mühüm logistik və ticarət mərkəzlərindən birinə çevirəcəkdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyi tərəfindəndə gömrük işinin təşkili istiqamətində də həyata keçirilən islahatlar ölkəmizin beynəlxalq ticarətdə rolunu artırmaqla yanaşı, qeyri-neft sektorunun inkişafı, sahibkarlıq mühitinin yaxşılaşdırılması, idxal-ixrac əməliyyatlarının sürətli və şəffaf şəkildə həyata keçirilməsində mühüm rol oynamaqdadır.

Tarixi İpək yolunun bərpası TRASEKA proqramının uğurla həyata keçirilməsi istiqamətində ölkəmizin fəal dəstəyi və təşəbbüsü, digər dəhlizlərlə müqayisədə, yüklərin respublikamızın ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir.

Son dövrlərdə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli tədbirlər həyata keçirilir, modern nəqliyyat infrastrukturu yaradılır, tranzit potensialı artırılır. Bütün bunlar isə Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir, dövlətimizin siyasi və strateji əhəmiyyətini artırır.

Sahibkarlığın inkişafının müxtəlif iqtisadi modelləri dünyanın aparıcı ölkələrində tətbiq edilir. Belə modellərdən biri də xüsusi iqtisadi zonalardır. Xüsusi iqtisadi zonaların yaradılmasında məqsəd ölkə iqtisadiyyatının prioritet sahələrinin inkişafının sürətləndirilməsinin, yerli və xarici investisiyaların cəlb edilməsinə daha əlverişli şəraitin yaradılmasının, yüksək texnoloji sahələrin inkişafının, rəqabətqabiliyyətli, səmərəli istehsal və xidmət sahələrinin təşkilininin dəstəklənməsidir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı il mart ayının 17-də Qaradağ rayonunun Ələt qəsəbəsində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalaması da məhz yuxarıda xatırlatdığımız məqamlarla bağlı olub.

Bu sahədə aparılan işlərin davamlılığını təmin etmək üçün yeni limanın ərazisi də daxil olmaqla, ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limanı daha geniş tranzit və daşıma imkanları ilə təmin edəcək. Məhz buna görə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyən edən “Ələt Azad İqtisadi Zonası haqqında” 18 may 2018-ci il tarixli Qanun imzalanıb.

Son zamanlar Bakı Beynəlxalq Dəniz Ticarət Limanının rəhbərliyi tərəfindən də Limanın imkanlarının genişləndirilməsi və bu imkanların ticarət və logistika sahəsində dünyanın qabaqcıl ölkələrində tanıdılması ilə bağlı uğurlu işlər görülüb ki, bu da tranzit yükdaşımalarının artması ilə nəticələnmişdir. Liman rəhbərliyinin Avropa və Asiya ölkələrinin nəhəng limanları ilə yaradılan əlaqələri, beynəlxalq logistik şirkətlər ilə keçirilən görüşlər və eləcə də beynəlxalq konfranslardakı təqdimatlar 2020-ci ildə Bakı Beynəlxalq Ticarət Limanın imkanlarından istifadə edilməsi üçün olan müraciətlərin sayını daha da artıracaqdır. Bu inkişaf, şübhəsiz ki, biz sahibkarları sevindirir.

Nəzərə alsaq ki, biz yaxın gələcəkdə Ələt Azad İqtisadi Zonasının yaradılmasına başlayacağıq, fikrimcə, Azərbaycanın sahib olduğu coğrafi-strateji, coğrafi-iqtisadi mövqeni dəyərləndirmək, Logistika və Tranzit Ticarətin, eləcə də Anbar rejimi imkanlarından ən yüksək səviyyədə faydalanmaqla potensial imkanları önə çıxarmaqda faydalı ola bilər.

Azərbaycan dünyanın ticarət mərkəzlərindən birinə çevrilməsi üçün zəruri olan bütün imkan və bacarığa malikdir. İqtisadi, coğrafi və siyasi üstünlüklərimizi nəzərə alaraq, ölkənin sahib olduğu logistik potensialından tam şəkildə istifadə etmək üçün mövcud imkanlardan bir qismi tərəfimizdən araşdırılmışdır.

Bu imkanlardan biri Antrepo tipli anbar rejimidir. Antrepo tipli anbar kommersiya xarakterli malların gömrük nəzarəti altında yerləşdirildiyi, yaxşı saxlanıldığı, gömrük qanunvericiliyinə görə qurulmasına icazə verilən qapalı və açıq məkanlardır.

Ölkəmizdə beynəlxalq ticarətin inkişafı istiqamətində, anbar rejiminin inkişaf etməsinə formalaşdırılmasına zərurət yaranmışdır.

Avropa və Türkiyədə çox sıx şəkildə istifadə edilməkdə olan bu anbar sistemi mənimsənilə və Avropa Anbar Rejimi tam tətbiq edilərsə, başda Türkiyə olmaqla bütün Avropa şirkətləri bölgələrə, bazarlara çıxaracaqları məhsulların bir qismini əvvəlcədən Azərbaycandakı Antrepo tipli anbarlara göndərə və müştəri tapdıqca, Azərbaycanın daxilindəki və ya xaricindəki alıcılara göndərilməsi üçün logistik fəaliyyətlərini sürətləndirə, ticari əlaqələrini asanlaşdıra bilərlər.

Antrepo tipli Anbar sistemi Azərbaycanda dərhal tətbiq oluna biləcək imkanlara malik kateqoriyaya aiddir. Buna ehtiyac həddindən artıq çoxdur. Sistem tətbiq edilərsə, başda Türkiyə olmaqla Avropadakı bir çox şirkətlər birbaşa Azərbaycana sərmayə yatırmaq, logistika fəaliyyətinin bir qismini Azərbaycandan icra etmək niyyətində ola bilər. Ölkəmizdə bu potensial artıq mövcuddur.

Reallaşdırmağı mümkün olan layihə, anbar sisteminin inkişaf etdirilməsi, layihənin həm Azərbaycanda olan istehsalçıların və iş adamlarının xeyrinə, həm də yerləşdiyi mövqe baxımından dövlətin xeyrinə olacaq şəkildə planlaşdırılması üçün müvafiq plan və proqramlar hazırlamaq məqsədə uyğun olar.

Məlum olduğu kimi, Azərbaycan Asiya qitəsinin coğrafi-strateji, coğrafi-iqtisadi cəhətdən ən əlverişli regionunda yerləşir. Dövrümüzdə bunu daha da əhəmiyyətli edən faktorlar:

- Şərq-Qərb qovşağında həyata keçirilən “Bir nəsil-bir yol” kimi adlandırılan “İpək Dəmir Yolu” layihəsi;
- “Bir kəmər, bir yol” layihəsində Azərbaycanın iştirakı;
- Şimal-Cənub qovşağında həyata keçirilən, Azərbaycan ərazisindən (Xəzər dənizinin qərbindən) keçən və İran Körfəzində yerləşən, bir çox limanlara qədər uzanan Şimal-Cənub Dəmir Yolu layihəsi;
- Bakı-Tbilisi-Ceyhan boru xətti, boru kəməri layihəsi;
- Qərb-Şərq xətti üstündə yerləşən quru yolu layihələri və s.

Azərbaycan Respublikasının malik olduğu neft və təbii qaz başda olmaqla mədəniyyət, turizm, idman fəaliyyəti, incəsənət və s. sahələrdə olan potensialı ölkəmizi daha da cəlbedici etməkdədir.

Azərbaycan coğrafi mövqeyinə görə Asiyanı Avropa və Afrika ilə birləşdirən dəyərli bir körpüdür. Bu üstünlüyünə görə ölkə sürətlə dünyanın ən inkişaf etmiş ölkələri sırasına daxil ola bilər. Azərbaycanın malik olduğu bu imkanlar dünyanın çox az ölkəsində var.

Azərbaycanın Asiyanın ən mühüm Ticarət və Logistika Mərkəzinə çevrilməsində əsas amillərdən biri də Anbar sisteminin inkişaf etdirilməsinin sürətlə həyata keçirməsi şərti ilə mümkündür. Bu, çox sərmayə tələb etməyən bir addımdır və həm də dünyada Azərbaycanın iqtisadi cəhətdən etibarlılığını sürətlə yüksəldən addım ola bilər.

Qlobal görüşlərə dayanaraq, anbar rejimlərinin üstünlüklərindən həm iqtisadi, həm də siyasi baxımdan Azərbaycanın xeyrinə istifadə etmək üçün strategiya hazırlanmalı, tətbiq oluna bilən plan-layihələr həyata keçirilməsi məqsədəuyğun olar.

Anbar sistemi çərçivəsində ölkəyə gətiriləcək və ölkə xaricinə satılacaq malların bütün bank əməliyyatları Azərbaycan banklarında həyata keçiriləcəyi üçün bu aktivasiya Azərbaycan manatının gücünə əlavə güc qatmaqla yanaşı, qlobal olaraq maliyyə sabitliyinə malik olan dövlətimizin dünyadakı nüfuzunu artırar.

Antrepo tipli Anbar sisteminin yaradılması və təkmilləşdirilməsi Azərbaycana ən mühüm ticarət və logistika mərkəzi olmaq imkanı verir. Bu, dünyada kifayət qədər diqqət cəlb edər və dünyanın nəhəng şirkətlərinin Azərbaycana maraq göstərmələrinə səbəb olar. Bu, əlavə işlərin formalaşmasına, əlavə sənayenin inkişafına və əlavə məşğulluğun yaradılmasına gətirib çıxarar.

Yüklərini Azərbaycana daşıyan quru və dəmir yolu şirkətləri (Azərbaycana gətirilən mallar və tranzit keçid üçün Azərbaycana gələn mallar) yüklərini anbara ən sürətli şəkildə boşaldaraq öhdəliklərini yerinə yetirərlər.

Dövlət, anbara girən və çıxan malların müəyyən edilməsində rahatlığa sahib olacağı üçün həm ərzaq təhlükəsizliyi, həm də gömrük gəlirləri baxımından üstünlük qazanar, qeydiyyatdan keçməmiş iqtisadiyyatı qeydiyyata alar.

Orta müddətdə:- Bütün dünya xarici ticarət iştirakçılarına Azərbaycandakı işgüzar mühitin yaranmasına, beynəlxalq ticarət infrastrukturunun inkişafını göstərərək, ölkənin imicini daha yüksək səviyyəyə qaldıraraq beynəlxalq iş adamlarının etibar edəcəyi bir iş mühiti yaradılmasına səbəb olar.

Xüsusi rejimli ticari mərkəzin (Antrepo tipli anbarlar) tətbiq edilməsi və Azərbaycan qanunvericiliyinə uyğun təkmilləşdirilməsi daha sonra açılacaq və istifadəsi zəruri olan Azad Ticarət və Azad Limanların yaradılmasında və işlədilməsində bu sahədəki iştirakçılara (gömrük və əlaqədar təşkilatlara) qazanacaqları təcrübə ilə gələcəkdə ideya baxımından qatqı verər.

Heç şübhə yoxdur ki, uzun müddətdə - ölkəmizin malik olduğu coğrafi-strateji, coğrafi-iqtisadi bacarıq və imkanların yaxşı idarəetmə tərəfindən strateji hədəfə doğru yaxşı planlanması və həyata keçirilməsinin nəticəsində Azərbaycan bugünkü Honq Konq, Dubay, Sinqapur və s. kimi şəhərlərdən daha liberal ticarət və logistika mərkəzi vəziyyətinə gələ bilər.

Son dövrlərdə beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı ilə əlaqədar ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğu logistik layihələr iqtisadiyyatımızın inkişafına mühüm töhfələr verməklə bərabər, onun beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcək, Azərbaycan Qafqazın, Asiyanın parlayan ulduzu kimi tezliklə dünyada öz yerini tutacaqdır.

**Rəşad ƏLİYEV,**
**“My Brоker” şirkətinin təsisçisi.**